# *Ramin MƏMMƏDOV:* "Qarabağda və indiki Ermənistan ərazilərində dini irsimiz qəddar hücumlara məruz qalıb"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov avqustun 19-22-də Braziliya Federativ Respublikasında keçirilən G20 Dinlərarası Forumunda (IF20) iştirak edib.



Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, forumda çıxış edən R.Məmmədov Azərbaycanın dinlərarası və mədəniyyətlərarası harmoniyaya əsaslanan multikulturalizm modeli, eləcə də bu nümunəvi mühitin qorunması istiqamətində həyata keçirilən dövlət siyasəti barədə ətraflı məlumat verib. Deyib ki, əsrlər boyu Azərbaycanda müxtəlif konfessiyaların nümayəndələri sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Dini etiqad azadlığı, tolerantlıq ənənəsi Azərbaycan kimliyinin ayrılmaz elementinə, millətin plüralizmə sarsılmaz sadiqliyinin sübutuna çevrilib. Bakıda məscidlər, kilsələr və sinaqoqların yan-yana mövcud olması müxtəlif dini icmaların harmoniya şəklində birgəyaşayışının sübutudur. Azərbaycan dövləti tərəfindən bu zəngin tarixi, maddi və mənəvi irsin qorunaraq gələcək nəsillərə çatdırılması üçün yaradılan hərtərəfli qanunvericilik bazası irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən asılı olmayaraq, hamı üçün bərabər hüquq və azadlıqlara təminat verir.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin hər zaman tolerantlıq və inklüzivlik modeli olaraq qəbul edildiyini diqqətə çatdıran komitə sədri diqqətə çatdırıb ki, tarixi və dini abidələrin, müqəddəs yerlərin və ziyarətgahların bərpası, yenidən qurulması və mühafizəsi dövlətin dinə və milli-mənəvi dəyərlərə dərin hörmətini əks etdirir. Azərbaycanın mədəni irsin qorunub saxlanması istiqamətində fəaliyyəti ölkə hüdudlarından kənara çıxır. Belə ki, Azərbaycan Vatikandakı Müqəddəs Marçellino, Pyetro və Sebastyan katakombalarının bərpasına töhfəsini verib, Fransadakı Notr-Dam kilsəsinin təmiri üçün vəsait ayırıb.

Xalqımızın tarixin müxtəlif dövrlərində dini ayrı-seçkiliyin ən qəddar formalarından əziyyət çəkdiyini diqqətə çatdıran R.Məmmədov ölkəmizin 30 il ərzində işğal altında saxlanılmış ərazilərindəki 67 məsciddən 65-nin məhv edildiyini bildirib. Qarabağda və azərbaycanlıların yüzilliklər ərzində yaşadıqları indiki Ermənistan ərazilərində dini irsimizə qarşı qəddar hücumlara baxmayaraq, xalqımızın gələcəyə kökləndiyini, bütün regionun tarixində sülh və əməkdaşlığa əsaslanan yeni səhifə açmağa çalışdığını, dini və etnik tolerantlığı milli kimliyinin təməl sütunu kimi qorumağa davam edərək, işğaldan azad olunmuş ərazilərdə dini-tarixi abidələrin bərpası ilə bağlı mühüm layihələr həyata keçirdiyini vurğulayıb.

Azərbaycan.- 2024.- 23 avqust (№ 180).- S.10.